Tarix və onun problemləri, №4 2009

KÖNÜL BƏŞİROVA
*BDU-nun dissertantı*

# AZƏRBAYCAN-TÜRKİYƏ ƏMƏKDAŞLIĞI TARİX VƏ GEOSİYASƏT MÜSTƏVİSİNDƏ

Müxtəlif tarixi dövrlərin siyasi cərəyan və proseslərinin araşdırılması hər hansı bir milli problemlərin öyrənilməsi zərurətindən irəli gəlir. Tarixi reallıqların öyrənilməsi və müasir beynəlxalq siyasətdə obyektiv mövqe baxımından Azərbaycan-Türkiyə münasibətlərinin elmi aktuallığı hər iki ölkənin elmi və rəsmi dövlət ictimaiyyəti tərəfindən qiymətləndirilməkdədir. Odur ki, tarixi orta əsrlərin müxtəlif dövrlərinə gedib çıxan və həmçinin XV-XVI yüzilliklərdən bəri əhatəli xarakter almış Azərbaycan-Türkiyə ictimai, iqtisadi, siyasi, mədəni və diplomatik münasibətlərinin öyrənilməsinin aktuallığı inkarolunmaz bir həqiqətə çevrilmişdir. Çünki həmin münasibətlərin obyektiv təhlili və tədqiqi həm də bu günkü Azərbaycan-Türkiyə münasibətlərinin hansı zəmin üzərində yarandığını üzə çıxarır, bu iki tarixi genetik kökə malik olan ölkələr arasında vaxtilə mövcud olmuş müxtəlif əlaqələrin qarşılıqlı maraq və mənafe baxımından inkişaf etdirilməsinə böyük imkan yaradır.

Qeyd etmək lazımdır ki, istər Azərbaycan, istərsə də Türkiyə alimləri içərisində iki ölkənin tarixi-siyasi münasibətlərin yaranması və inkişaf istiqamətlərinə dair çoxsaylı elmi əsərləri ortaya qoyulmuşdur. Maraqlıdır ki, həmin əsərlərin çox hissəsində hər tarixi dövrün xüsusiyyətinə uyğun olaraq Azərbaycan-Türkiyə münasibətləri bəzən Türkiyənin maraq dairəsi və onun dövlət mənafelərinin təminatı baxımından mühüm amil kimi səciyyələndirilir, milli ərazi, dini-siyasi mənafelərin təmin olunması kimi özündə birləşdirən siyasət araşdırılır, bəzilərində isə bütün daxili və xarici ziddiyyətlərə baxmayaraq vahid milli qüdrətin təmin olunması zərurəti baxımından yaranan siyasi münasibətlər kimi təhlil olunur. Əlbəttə elmi araşdırma aparıldığı halda fikrimizcə bu da təbii hal hesab edilməli, tarixi-siyasi mənafelərin mahiyyətinin öyrənilməsi baxımından həmin ziddiyyətlərin də araşdırılması vacibdir.

Qeyd edək ki, XIII əsrin sonlarında Kiçik Asiya ərazisində yaranmağa başlayan, illər ötdükcə siyasi qüdrət və coğrafi ərazi cəhətcə qüvvətlənən, XV əsrin II yarısından XVII əsrin II yarısına qədər isə Asiya və Avropanın mühüm strateji əhəmiyyətli yerlərini ələ keçirən Osmanlı dövləti əzəmətli bir imperiya kimi mövcud olmuşdur. Göstərilən yüzilliklərdə isə elə siyasi proses cərəyan edirdi ki, Azərbaycan müxtəlif xarici hücumların hədəfinə çevrilmiş, yaxın və uzaq qonşuların hərbi-siyasi mübarizə meydanı olmuşdur. Bu əsrlər həm də geosiyasi məkanda İran və Türkiyənin arasında davam edən gərgin siyasi toqquşmaların məskəni kimi bütün regionu əhatə etmişdir. Tədqiqatlara göstərir ki, Azərbaycanın Türkiyə ilə münasibətləri həmin əsərlərin müxtəlif dövrlərdə ölkəmizin ərazisində mövcud olmuş Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar və Səfəvi dövlətlərinin, daha sonra isə xanlıqlar dövrünün Osmanlı imperiyası ilə siyasi münasibətlərindən asılı olaraq müxtəlif xarakter daşımışdır. Fikrimizcə Azərbaycan ərazisindəki siyasi dəyişkənlik, müxtəlif dövlət idarəçilik sistemi və yeni hakimiyyət dəyişkənliyi elə bu münasibətlərin bəzən ziddiyyətli xarakter almasını şərtləndirən amildir. Çünki həmin dövlətləri quran müxtəlif siyasi birliklər çox vaxt elə daxildə çəkişmələrin, ölkənin xarici təsir altına düşməsinin səbəbkarı olmuşlar. Bu mənada Osmanlıların, Qaraqoyunlu və Şirvanşahlarla olan əlaqələri hadisələrin siyasi axarı baxımından bu imperiyanın Ağqoyunlu və Səfəvi hökmdarları ilə əlaqələrindən fərqli olmuşdur. Lakin hadisələrin xarakteri siyasi baxımdan cərəyan etmə xətti son nəticədə vahid milli

münasibətlərin mövcudluğu zərurətini ortaya qoymuşdur. Bu isə hələ orta əsrlərdən bəri xarici müdaxilələr zamanı Türkiyənin Azərbaycana göstərdiyi doğma münasibətə əyani sübutdur desək səhf etmərik.

Tədqiqatçı B.Tuncay yazır: «Türk birliyinə və onun sıx mədəni siyasi əlaqələrinə təsir edən amil həm də mədəni, mənəvi, ədəbiyyat, din və türk xalqlarının birlikdə formalaşdırdığı dəyərlər sistemidir. Buraya ədəbi abidələrin (Orxan-Yenisey, Tonyuquk, Gul-Tekin və s.) Baykal gölünün tam güney ucundan təqribən 400 km cənubda Monqolustanın və Asiyanın Qərbə doğru uzanan böyük ərazisində kök salmış əhatə dairəsi daxildir» (1. № 48.). Çox təəssüf ki, bu mənəvi xəzinədən bu gün də bir çox türk xalqları milli birlik, tarixi bağlılıq ənənəsi kimi istifadə etməkdə çətinlik çəkirlər. Avropa elmi isə bu dəyərlərdən XIX əsrə qədər xəbərsiz olmuşdur. Doğrudur, bu gün türk dövlətlərinin bütün sahələrdə münasibətlərinə təsir edən amil həm də bu tarixi varislik ənənəsinə ögey münasibətlə daha çox bağlıdır.

Hələ XV əsrdə Cahanşah Qaraqoyunlu ilə II Sultan Murad arasında müxtəlif formada ziddiyyətlərə baxmayaraq vahid milli nailiyyət hisslərinin bölüşməsini ifadə edən yazışmalar həyata keçirilmişdir. Osmanlı sultanı həmin vaxt Macarıstanın yenidən Osmanlılar tərəfindən fəth olunduğunu böyük sevinclə Cahanşaha xəbər vermişdi. Cahanşah isə öz növbəsində onu ürəkdən təbrik edərək, özünün siyasi əqidəsini belə ifadə etmişdi: «Mən həmişə öz sələflərim kimi, islam dininə müxalif olanlarla mübarizə edəcəyəm və onların rəfiqlərinə qarşı belimə cahad və müharibə kəməri bağlayacağam». Cahanşah belə gənc yaşlarından uzaqgörən bir hökmdar olmuşdur. O, özünü Şərq regionunda müvəffəq görmək üçün Omanlıları ən yaxın arxa bilmiş, onlarla xoş keçinməyi münasib hesab etmişdi. «O,... Sultan Məhəmməd Fatehə elçi göndərərək Sivasa qonşu olan Qaraqoyunlu torpaqlarına hücum etməyəcəyi təqdirdə ona 4 min kental təryağı (kərə yağı) və min baş dəvə vercəyəni bildirmiş və Osmanlı hökmdarı da bu təklifi qəbul etmişdi».

Göstərmək lazımdır ki, həmin dövrdə Azərbaycanla Türkiyə arasındakı münasibətlər təkcə tərəflərin bir-birinə fəthnamələr, həraətnamələr, məhəbbətnamələr, təhniyətnamələr, təbriknamələr və s. göndərmələri ilə bitmir, hökmdarlar bir sıra cari məsələləri də rəsmi yazışma yolu ilə həll edirdilər. II Sultan Məhəmmədin İstanbul dənizinin sahilindən Cahanşaha yolladığı bir məktub buna misaldır. Osmanlı sultanı özünün «məhəbbətnamə» adlandırdığı həmin məktubunda Qaraqoyunlu hökmdarına yazırdı: «...Bursadan sizin diyarınıza öz kəsbkarlığını etmək üçün Əhməd Musa adlı bir tacir getmişdi. Onun əlindən bütün nəqd pullar və cins mallar... sizin dərgahınızın ümənası (əmin-amanlığı qoruyanlar) tərəfindən alınmışdır. Onun fərzəndi olan Şeyx Məhəmməd Bursəvi... onun varisi kimi oraya gəlir... O, çatan kimi valilərə və nəvvabe-südura (cənab sədrlərə) işarə olunsun ki, şəri qohumluq hökmünə riayət edərək, alınmış şeyləri Məhəmmədə qaytarsınlar...» (2. s. 20-21.). Fikrimizcə bu o deməkdir idi ki, müxtəlif səviyyələrdə hər iki ölkədə münasibətlərə xələl gətirmək istəyənlər olsa da, lakin dövlət səviyyəsində bu münasibətlərin kökünə və mahiyyətinə çox diqqətlə yanaşılırdı.

Əlbəttə XV əsrin müxtəlif dövrlərində Qaraqoyunlularla və Şirvanşahlarla sülh, Ağqoyunlularla gah sülh, gah da müharibə şəraitində yaşayan və həmin dövlətlərlə öz ictimai-iqtisadi, siyasi, dini və hərbi münasibətlərini ardıcıl davam etdirən Osmanlı dövləti XV əsrin II yarısından başlayaraq, əvvəlcə Səfəviyyə dərviş və şeyxləri, sonradan isə (XVI əsrdə) Səvəfi padşahları ilə qarşılıqlı münasibətlərdə olmuşdur. Bəzən isə vahid milli mövqe nümayiş etdirmişlər. Bütün XVI əsr boyu davam edən edən həmin münasibətlər əsasən rəqabət xarakteri daşımışdırsa da, Osmanlı-Səfəvi əlaqələrində, dinc yanaşı yaşamaq, bir-birinə müxtəlif məqsədlər daşıyan diplomatik elçilər (səfarət heyətləri) yollamaq, məktublar, hədiyyələr göndərmək məqamları da az olmamışdır.

Tədqiqat işinin müxtəlif hissələrində bu ziddiyyətlərin yaradılmasında Avropa ölkələrinin rolunun az olmadığının şahidi oluruq. Odur ki, münasibətlər tarixinin siyasi təhlilində bu məqam həmişə nəzərdə saxlanılmalıdır.

XVI əsr Səfəvi-Osmanlı münasibətlərinin şərhinə başlamazdan əvvəl, bütün müsəlman Şərqində bərqərar olmuş islam dininin iki cərəyanından – şiəlik və sünnilikdən bəhs etməmək olmaz. Onu da qeyd etmək lazımdır ki, XV əsrin sonu XVI əsrin əvvələrində üç böyük sülalə – Osmanlılar, Məmlüklər və Səfəvilər bütün müsəlman dünyası və islam aləmində üstünlük əldə etməyə çalışırdılar. Bu sülalələrin əllərində olan geniş ərazilərdə sünni-şiə münasibətləri gərginləşdirilir, bir dinin iki məzhəbi qarşı-qarşıya qoyulurdu. Məmlük sultanları Osmanlı və Səvəfi hökmdarlarını islam dininin qayda-qanunlarını pozmaqda günahlandırıb, Qahirəni bütün islam dünyasının baş şəhəri sayır. Məhəmməd peyğəmbərin və böyük müsəlman imamlarının vəsiyyət və tövsiyələrinə yalnız orada düzgün əməl olunduğunu bildirirdilər.

Məlumdur ki, şiəlik ideyaları VII əsrdən etibarən meydana çıxmışdır. Həmin ideyaların ən dolğun şərhi XII əsr müəllifi Məhəmməd əş-Şəhristani tərəfindən onun «Kitab əl-miləl və-n-nihəl» kitabında təfsilatla verilmişdir. Şəhristaniyə görə, şiələr Məhəmməd peyğəmbərin qızı Fatimənin əri olan dördüncü xəlifə Əlinin (xilafət illəri 656-661) tərəfdarları kimi çıxış edərək, yalnız onun ən layaqətli imam (müsəlman icmasının başçısı) və xəlifə (Məhəmməd peyğəmbərin canişini) olduğunu qəbul edirdilər. XIV-XV əsrlərdə Ön və Orta Asiya dövlətlərinin əksərində sünnilik rəsmi dövlət məzhəbi olmuşdur. Bəzən, hətta bir sıra hökmdarların (məsələn, Cahanşahın) şiəliyə meyl etmələrinə baxmayaraq, üstünlük sünniliyə xas idi, şiə məzhəbinin nümayəndələri isə təqib olunurdular. Amma geniş xalq kütlələrinin əksəriyyəti, əsasən keçirdikləri iqtisadi çətinlik üzündən, islamın ilk dövrlərində mövcud olan şəriət qanunlarının bərpa olunmasına (yəni şəriətə əsaslanmayan vergi və mükələfiyyətlərin ləğvinə) cəhd edir, «qeybə çəkilən» 12-ci şiə-isnaəşəri imamı Mehdinin tezliklə qayıtmasını arzulayır, onun köməyi ilə ehtiyac, məhrumiyyət və zülmlərdən azad olunacaqlarına ümid edirdilər.

Həmin dövrdə şiəlik yalnız Azərbaycanda deyil, həmçinin İranda, İraqi-Ərəbdə, Suriyada (Şam) və Kiçik Asiyada (Rum) da yayılmaqdadır. Mötədil şiə-imamların təsiri ilə, yuxarıda adları çəkilən dövlətlərin ərazilərində səvəfi-qızılbaş hərəkatı yaranmaqda idi.

İ.P.Petruşevski bu problemin mahiyyətinə nəzər salaraq göstərir ki, İran-Türkəyə müharibələrinin də həmin dövrdə ideoloji əsasının dini motivlər olduğuna baxmayaraq, əslində Osmanlı Türkiyəsinin Zaqafqaziyanın zəngin ölkələrini və ticarət-karvan tranzit yollarını ələ keçirməkdə böyük marağı vardır. «Bundan başqa, Bakı limanını tutmaqla Türkiyə Xəzər dənizinə çıxmaq imkanı əldə edirdi. Şirvanın zənginliyi, onun nefti, duzu, ipəyi, pambığı və s. məhsulları da türk sultanlarını Azərbaycana hücuma şirnikləndirən amillərdən idi» (3. səh.64-67.). Əlbəttə dövrün xarakterinə əsasən yaranmış dini, milli ziddiyyətlər fikrimizcə İran tərəfindən həyata keçirilər siyasi nəticəsidir və bu siyasət bilavasitə Azərbaycanla Türkiyənin münasibətlərinin zəifIədilməsi məqsədini qarşıya qoymuşdur.

Qeyd etməliyik ki, orta əsrlər boyu Azərbaycan və Türkiyə arasındakı münasibətlərin həyata keçirilməsində daimi səfərətxana və daimi fəaliyyət göstərən səfirlər olmamışdır. Lakin bu dövlətlərə bəzi Avropa ölkələrindən, həmçinin Venesiya respublikasından uzun müddətə xüsusi səfirlər yollanır, onlar üçün müəyyən edilən səfərətxanalarda fəaliyyət göstərirdilər. Bertold Şpulelə əsaslanan türk tədqiqatçıları Faiq Rəşad Unatın məlumatına görə, Venesiya 1454-cü ildən, Polşa 1475-ci ildən, Rusiya 1497-ci ildən, Fransa 1525-ci ildən, Avstriya 1528-ci ildən, İngiltərə 1583-ci ildən başlayaraq, İrana, Türkiyəyə və Azərbaycana öz daimi səfirlərini yollamışdılar. Amma Azərbay-

candan və ona qonşu dövlətlərdən uzaq və yaxın ölkələrə XIX əsrə qədər «qasid», «namərəs» («məktubaparan»), «rəsul» və başqa adlar altında, əsasən az müddətə, elçilər göndərilməkdə davam etmişdir. Eyni bir məktubda bir elçi haqqında həm «rəsul», həm də «qasid» istilahlarının işlənməsi bu istilahlar arasında fərq qoyulmadığına dəlalət edir.

XVIII yüzilliyin birinci rübündə Rusiya dövlətinin Qafqazı, xüsusilə Xəzəryanı bölgələri işğal etmək siyasəti nəhayət Osmanlı imperiyasının maraqları ilə toqquşurdu (4. səh.110). Uzun illər Avropa və Qafqaz bölgəsində daxili çəkişmələr və işğalçılıq planları Osmanlı imperiyasını zəiflətdiyi üçün Rusiya bu məqamı dəqiq və vaxtında seçmiş, siyasi manevrləri əsas götürmüşdür.

Şərqdə öz müstəmləkə siyasətini həyata keçirən və Rusiyanın Hindistanın həndəvərlərində möhkəmlənməsini arzulamayan İngiltərə hətta Türkiyəni Rusiya ilə müharibəyə təşrik edirdi. İsveçlə qanlı müharibəni yenicə qurtarmış Rusiyanın da yeni müharibəyə başlamaq imkanı yox idi. I Pyotr Cənubi Qafqazın digər yerlərinə iddialarından əl çəkib, Xəzəryanı bölgələri əlində saxlamaq şərti ilə Türkiyə ilə sövdələşməyə can atırdı. Rusiya Türkiyə ilə münasibətləri nizama salmaqda Fransanın vasitəçiliyindən istifadə etdi. O zaman Fransanın köhnə rəqibi Avstriya ilə münasibətləri çox kəskin idi, Türkiyəni, ya da Rusiyanı müttəfiqi etməyə çalışırdı, buna görə də onların arasında hərbi ixtilaf meydana çıxmasına yol vermək istəmirdi. 1723-1724-cü illərdə İstanbulda fransız səfiri de Bonakın vasitəçiliyi ilə Rusiyanın İstanbuldakı rezidenti Mustafa arasında uzun-uzadı danışıqlar getdi. Nəhayət, 1724-cü il iyunun 30-da Rusiya ilə Türkiyə arasında sülh müqaviləsi imzalandı. Rusiya 1723-cü il 12 sentyabr tarixli Peterburq müqaviləsinin şərtlərinin təsdiqinə, Dərbənd, Bakı, Salyan, Lənkəran, Rəşt və Ənzəlinin Rusiyaya birləşdirilməsi faktının qəbul edilməsinə nail oldu. Həm də Rusiya Mazandaran və Astrabadı da işğal etmək hüququ alırdı. Rusiya öz növbəsində Xəzəryanı bölgələr istisna olmaqla Cənubi Qafqazın digər torpaqlarının və Qərbi İranın Türkiyəyə keçməsinə razılıq verdi. Özgə torpaqlarını iki imperiya arasında bölən ədalətsiz 1724-cü il İstanbul müqaviləsinin şərtləri Azərbaycan üçün xüsusilə ağır idi. Ölkə ərazisi dörd yerə parçalanırdı. Xəzəryanı bölgələr Rusiyaya verilməklə yanaşı, Rusiyaya keçən dənizsahili zonası istisna olmaqla, Şirvanın qalan hissəsi Türkiyənin himayəsi altında xanlıq elan olunurdu. Lakin, Türkiyənin burada qoşun saxlamaq hüququ yox idi. Ərbədil və ona yaxın kiçik ərazi Səfəvilərin əlində qalmalı idi. Azərbaycanın yerdə qalan böyük hissəsi isə Türkiyənin ixtiyarına keçirdi (5. səh.41.).

XVIII əsrin 20-ci illərin ikinci yarısında, 1762-ci ilə Avstriya ilə Rusiya arasında ittifaq müqaviləsi bağlandıqdan sonra Rusiya Cənubi Qafqazda Türkiyəyə qarşı sərt siyasət yeritməyə başladı. Rus hökuməti Türkiyə ilə rəqabətdə İranı öz tərəfinə çəkməyə çalışırdı. 1726-cı ildə knyaz V.Dolqoruki ilə keçmiş Kartli çarı VI Vaxtanq II Təhmasiblə münasibət yaratmaq üçün Gilana göndərildi. Rus hökuməti eyni zamanda İstanbul müqaviləsi əsasında ona verilmiş yerlərə yiyələnmək üçün əməli addımlar atırdı. 1726-cı ildə Quba «ölkəsi» Rusiyaya qatıldı. Həlak olmuş Sultan Əhməd xanın azyaşlı ölğu Hüseynəli Quba xanı vəzifəsinə təsdiq olundu. 1727-ci ildə Astaradan Kür çayına qədər olan Xəzəryanı torpaqların feodal hakimləri müqavimət göstərməyə kifayət qədər qüvvələri qalmadığından Rusiya təbəəliyini qəbul etdilər. Rusiya 1724-cü il müqaviləsinə əsasən ona keçməli olan, lakin Şirvan xanlığının ixtiyarında qalan bəzi əraziləri də ələ keçirməyə çalışırdı. 1727-ci il dekabrın 12-də Şamaxı yaxınlığındakı M (N) abur kəndində Türkiyə ilə Rusiya arasında sərhədlərinin müəyyənləşdirilməsi barədə imzalanmış sənədə əsasən Cavad, Salyan, Şeşpara, Təngi Rusiyaya verildi. Hacı Davud Təngi qalasını verməkdən boyun qaçırdı, lakin ruslar zorla qalanı ələ keçirdilər. Bundan sonra Hacı Davudun mövqeyi zəiflədi. Digər tərəfdən, onun rəqibi Qızıqumuxlu

Surxay xan tez-tez Hacı Davudun mülklərinə və Türkiyədən asılı olan digər torpaqlara dağıdıcı basqınlar edirdi. Surxay xanı ram etmək imkan olmayan sultan onu Şirvanda hakimiyyət başına gətirmək yolu ilə sakitləşdirmək istədi. 1728-ci ilin yayında Hacı Davud ailəsi ilə birlikdə həbs edilib Gəncəyə gətirildi, sonra isə Rodos adasına sürgün edildi. Surxay xan Şirvana hakim təyin olundu. Rus hakimiyyət orqanları Salyan, Niyazabad, Müşkürdə istehkamlar tikməyə başladılar, Bakı qalasının bayır divarı yanında 5 qala bürcü tikildi.

Çar hökuməti Xəzəryanı bölgələrdə özünə sosial dayaq yaratmaq məqsədi ilə bu əraziyə xristian əhalini, xüsusilə ermənilər köçürməyə çalışırdı. I Pyotr Türkiyə ilə eyni məzhəbə malik sünnü azərbaycanlıları Bakıdan sürgün etməyi məsləhət görürdü. Polkovnik Ostafyevə Bakı, Salyan, Dərbənd və ətraf yerlərdə ermənilərin yerləşdirilməsi barədə xüsusi tapşırıq vermişdir (6.).

I Pyotrdan sonra tez-tez baş verən saray çevrilişləri Rusiya imperiyasını zəiflədir, onun Cənubi Qafqazdakı vəziyyətini gərginləşdirirdi. Rus hökuməti Xəzəryanı bölgələri saxlamaq üçün çox böyük qüvvə və vəsait sərf edirdi, buradan əldə olunan gəlir isə çox cüzi idi. Xələfləri heç də I Pyotr Rusiyanın əsas rəqibi olan Türkiyənin əlinə düşməsi təhlükəsi aradan qalxacağı təqdirdə onlardan əl çəkməyə hazır idilər. Yalnız bunun əvəzində mümkün qədər çox qazanc əldə etməyə çalışırdılar. Nadirin başçılığı ilə İranda mərkəzi hakimiyyətin gücləndirilməsi İranın Xəzəryanı bölgələri öz əlində saxlaya biləcəyinə zəmanət verirdi. Xəzərsahili vilayətlərdə rus qoşunlarının komandanı general Levaşovla II Təhmasibin nümayəndələri arasında danışıqlar başladı. 1732-ci il yanvarın 21-də Rəştdə bağlanmış müqavilənin şərtlərinə görə, Kürdən Cənubda yerləşən Xəzəryanı bölgələr İrana qaytarıldı. Müqavilə İranda ticarət edən rus tacirləri üçün əlverişli şərtlər müəyyən edirdi.

Türkiyə ilə mübarizədə üstünlük qazanan Nadir Rusiyadan yeni zəbt etdiyi Xəzəryanı bölgələri bütünlüklə tərk etməyi tələb etdi. 1735-ci il martın 10 (21)-də Nadirin Gəncə yaxınlığındakı düşərgəsində Rusiya səfiri X.Qolitsın ilə İran hökuməti arasında müqavilə bağlandı. Müqavilənin şərtlərinə görə rus qoşunları Terekdən cənubdakı bütün Xəzəryanı torpaqları tərk etdilər. Gəncə müqaviləsi həm də Osmanlı imperiyasına qarşı yönəlmişdi. Nadir Rusiyadan xəbərsiz Türkiyə ilə sulh danışıqlarına başlamamağı vəd edirdi (7. str. 43).

Azərbaycanda İran hakimiyyətinin bərpa olunması xalqı yenidən İran zülmünə düçar etdi. Fasiləsiz müharibələr aparan şöhrətpərəst Nadir hərbi xərcləri ödəmək üçün ağır vergi siyasəti yürüdürdü. Uzunsürən müharibələrdə talan olunmuş Azərbaycan əhalisi vergiləri ödəmək iqtidarında deyildi.

Bu dövrdə Azərbaycan xanlıqları ilə Osmanlı imperiyası arasındakı münasibətlər də xüsusi əhəmiyyətə malik idi. Osmanlı imperiyası Qafqazda ona qarşı yönəlmiş Rusiya-Gürcüstan ittifaqına qarşı müsəlman dövlətlərinin ittifaqını yaratmağa çalışırdı. Azərbaycan xanlıqlarına elçilər göndərir, xanları Rusiyaya qarşı mübarizənin zəruriliyinə inandırmağa çalışırdı. Rus casuslarının topladığı məlumatlarda Azərbaycan xanlarının Türkiyə ilə yaxınlaşmaları göstərilirdi. Çar diplomatiyası bu yaxınlaşmadan təşvişə düşür, hər vasitə ilə Türkiyə ilə Azərbaycan xanlıqları arasında münasibətləri pisləşdirməyə çalışır, bəzən bunun üçün hərbi vasitələrə də əl atırdı (8. səh. 56).

1768-1774-cü illər rus-türk müharibəsindən sonra Osmanlı imperiyası ilə Azərbaycan xanlıqları arasında yaxınlaşma daha da gücləndi. Türkiyə Rusiya ilə münasibətlər yenidən gərginləşəcəyi təqdirdə Azərbaycan xanlıqlarından istifadə etmək niyyətində idi. Xanların bir çoxu da Rusiyanın təcavüzünün genişlənəcəyi təqdirdə, Osmanlı imperiyasının himayəsinə keçmək niyyətində idilər. Qarabağ, Şəki və Quba xanları bu məqsədlə 1785-ci ildə İstanbula elçilər göndərmişdilər.

Azərbaycan dövlətlərin öz gələcək xarici siyasət planlarını həyata keçirmək üçün Roma papaları, Venesiya respublikası, Neapol krallığı, Polşa, Macarıstan, Almaniya, İspaniya, Portuqaliya, Fransa, İngiltərə, Hollandiya, habelə Skandinaviya ölkələri, hətta belə Burqundiya və Qolştiniya hersoqluqları ilə də diplomatik əlaqə yaratmışdılar. Qərb saraylarında danışıqlar aparan Azərbaycan diplomatları öz ölkələrinin iqtisadi və siyasi mənafeyini uğurla müdafiə edirdilər. Ağqoyunlu və Səfəvi saraylarında daim Qərb ölkələrinin elçiləri olur, hətta bir sıra Avropa dövlətlərinin daimi səvirlikləri fəaliyyət göstərirdi.

Araşdırmalarımız göstərir ki, Ağqoyunlu və Səfəvi dövlətlərinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri, Osmanlı imperiyasına qarşı fəal xarici siyasətləri yer kürəsinin əlaqədar rayonunda tarixi inkinafın gedişinə müəyyən təsir göstərmiş, ümumdünya tarixində dərin iz qoymuşdur.

Ağqoyunlu və Səfəvilər dövlətləri Osmanlı imperiyasının şərqə doğru genişlənməsi yoluna sədd çəkdilər. Asiya qitəsində Osmanlı imperiyasının xeyrinə kəskin siyasi dönüş yaranmasına imkan vermədilər.

Ağqoyunlu və Səfəvi dövlətləri uzun tarixi dövr ərzində Osmanlı imperiyasının ağır zərbələrini öz üzərinə götürməklə Türkiyənin Avropa qitəsində, həmçinin Afrikada geniş hərbi uğurlarına mane oldular. Bir çox Avropa xalqları və dövlətləri qüvvətli xarici təhlükədən xilas oldular. Osmanlı imperiyasından asılı hala düşmüş ölkələrdə isə xalq-azadlıq hərəkatlarına əlverişli şərait yarandı. Bu, Osmanlı imperiyasına qarşı arxada müvəffəqiyyətlə mübarizə aparan Azərbaycan xalqının, habelə qonşu xalqların Avropa xalqları qarşısında tarixi xidməti idi (9. səh. 6-7). Öz münasibətlərində milli hüquqlara hörmət prinsipini əsas tutan Azərbaycan xalqının Türkiyə ilə münasibətləri XVIII-XIX əsrlərdə də qonşu dövlətlərin təzyiqlərindən yan keçməmişdir. Əgər orta əsrlərdə bu münasibətləri zəiflədən və hər iki dövləti əldən salan Avropa ölkələrinin imperialist maraqları idisə, XVIII-XIX əsrlər ərzində həmin münasibətlərdə Rusiya və İran faktoru ön sıraya çıxmışdır. Odur ki, təhlillər göstərir ki, Qafqaz geosiyasi məkanında Azərbaycanın bölüşdürülməsi siyasəti həyata keçirildikdən sonra Azərbaycanın Rusiya, İran və Türkiyə ilə balanslaşdırılmış diplomatik münasibətlərini həyata keçirən yeni bir siyasi qüvvəyə ehtiyac vardır. Bu prosesin hərəkətverici qüvvəsi olan Azərbaycan ziyalılarının ictimai-siyasi fəaliyyəti XX əsrin əvvələrində ideoloji xətti düzgün həyata keçirmiş, və bu iki ölkənin münasibətinin beynəlxalq əhəmiyyətinin zəruriliyi meydana çıxmışdır.

## *ƏDƏBİYYAT*

1.Tuncay B. Turançılığın əsasları. «Meydan» qəzeti. 18 may, 1995, № 48.
2. Şahin Fazil Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası. Bakı-Azərnəşr, 1995, 197 səh.
3. Petruşevski İ.P. Azərbaycan XVI-XVII əsrlərdə. Bakı, 1991, 311 səh.
4. Mustafazadə Tofiq. Ümumi Tarix. Bakı, 1997, 391 səh.
5. Mustafazadə Tofiq. XVIII əsrdə Azərbaycan Rusiya və Türkiyə münasibətləri sistemində. Bakı-Elm, 1992, 148 səh.
6. Гусейнов А.Н. Азербайджано-русские отношения. ХВ-ХВЫЫЫ в.в. Баку, 1963.
7. Миллер А.Ф. Кроткая истории Турцие. Москва 1948, 427 стр.
8. Məmmədov S.A. Azərbaycan XV-XVIII əsrlərin I yarısında. Bakı-1981, 274 səh.
9. Mahmudov Y. Göstərilən əsəri. səh. 6-7.

**КОНУЛЬ БЕШИРОВА**

## СОТРУДНИЧЕСТВО АЗЕРБАЙДЖАН-ТУРЦИЯ В ПЛОСКОСТНОСТИ ИЗ ИСТОРИИ И ГЕОПОЛИТИКИ

Статья исследовала соискателя ученой степени, преданного очень срочной проблеме системы международных отношений, от изучения точки зрения процессов в геополитической ситуации области. Автор анализирует действия, продвинул интеллектуала, живущего в начале XX centure и осуществляющего силу повода XX этих отношений. Важность дипломатических действий, выполненных в международном мире исследована. Сравнительные анализы выполнены с ролью в политическом процессе истории сегодня. Более важная проблема - тот автор, исследует XX столетия отношения мировых стран к Азербайджану и сотрудничества Турции все еще, он открывает сущность двусторонних стандартов.

**KONUL BESHIROVA**

## AZERBAIJAN-TURKEY COLLABORATION IN THE FLATNESS OF HISTORY AND GEOPOLITICS

Article investigated candidate for a degree devoted to very urgent problem of the system of international relations, from point of view learning of the processes in geopolitical situation of the region. Author analyses activities advanced intellectual living at the beginning of the XX centure and implementing motive strength of the XX these attitudes. Importance of the diplomatic activities carried out in the international world is investigated. Comparative analysises are carried out with role in political process of history of today. More important problem is that author investigates XX of the century of the attitude of the world countries to Azerbaijan and Turkey collaboration still, he opens essence of the bilateral standards.

***Rəyçilər: s.e.n.İ.Ağayev, t.e.d.S.Hacıyev.***

***BDU-nun Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin Elmi Şurasının 21 sentyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***